# Təbib

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 22 (1705) 30 dekabr 2019 - cu il Qiymәti 50 qәpik


## Prezident İlham Əliyev dünya azərbaycanlılarını təbrik edib

**Prezident İlham Əliyev Azərbaycan xalqının milli-mənəvi bütövlüyünü təcəssüm etdirən 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə dünya azərbaycanlılarını təbrik edib.**



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı təbrikdə ilk dəfə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə qeyd olunmuş bu tarixi günün xarici ölkələrdə məskunlaşıb yaşayan milyonlarla soydaşımızın azərbaycançılıq məfkurəsi ətrafında sarsılmaz birliyinin və Vətənə sədaqətinin rəmzi kimi hər il xalqımız tərəfindən ruh yüksəkliyi ilə bayram edildiyini bildirib.

Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra yaxın keçmişimizin bir çox tarixi sınaq anlarında mütəşəkkil birlik və həmrəylik nümayiş etdirərək, bütün sahələrdə böyük inkişafa və uğurlara nail olmuşdur.

Bu gün Azərbaycan dövləti müstəqil daxili və xarici siyasəti, artan beynəlxalq nüfuzu, iqtisadi, siyasi və hərbi gücü ilə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bir çox qlobal transmilli və regional layihələrin təşəbbüskarı və iştirakçısı olan ölkəmiz dünyanın enerji təhlükəsizliyinə sanballı töhfələr verməklə, regionda mühüm tranzit və logistika mərkəzinə çevrilmişdir. Zəngin təbii resurslarımız və iqtisadi potensialımız Azərbaycanın geostrateji mövqelərinin daha da güclənməsinə etibarlı zəmin yaradır və biz bu istiqamətdə ardıcıl siyasətimizi davam etdirəcəyik.

Sosial-iqtisadi, siyasi-hüquqi sahələrdə və dövlət idarəetməsində həyata keçirilən sistemli islahatlar, milli müstəqillik ideallarına sadiq, müasir dünyagörüşlü gənclərimizin bu prosesə daha fəal cəlb edilməsi bizi inamla qarşıya qoyduğumuz inkişaf strategiyasının hədəflərinə yaxınlaşdırmaqdadır. Uğurlu siyasətin nəticəsidir ki, ölkədə möhkəm ictimai-siyasi sabitlik və milli-mənəvi həmrəylik təmin edilmiş, insanlarımızın maddi rifahı əhəmiyyətli dərəcədə yaxşılaşmışdır.

Dünyanın ayrı-ayrı bölgələrində mürəkkəb etno-siyasi proseslərin, din və məzhəb qarşıdurmalarının, humanitar fəlakətlərin baş verdiyi bir vaxtda Azərbaycan sabitliyin, etnik-dini tolerantlığın və multikultural ənənələrin qorunub saxlanıldığı unikal məkandır. Müasir dövrdə insanları narahat edən sülh və təhlükəsizlik məsələlərinin, sivilizasiyalararası dialoq problemlərinin müzakirə edildiyi bir çox mötəbər beynəlxalq tədbirlərə, o cümlədən Dünya dini liderlərinin II Sammitinə, Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşünə ev sahibliyi etməsi və növbəti üç ildə bu Hərəkata sədrliyin Azərbaycan Respublikasına keçməsi dövlətimizin beynəlxalq nüfuzunun bariz nümunəsidir. Təsadüfi deyil ki, bu gün dünyanın ən gözəl şəhərləri sırasında yer alan paytaxtımız Bakı qlobal miqyasda sülhün və əmin-amanlığın təminatı üçün önəmli çağırışlar mərkəzinə çevrilmişdir.

Dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə Azərbaycanda "Nəsimi İli"nin elan edilməsi ictimai-mədəni həyatımızın builki əlamətdar səhifələrindən biridir. "Nəsimi İli" çərçivəsində ölkəmizdə və onun hüdudlarından kənarda keçirilmiş rəngarəng tədbirlər Azərbaycan mədəniyyətinin ümumbəşəri əhəmiyyətinin daha bir nümayişi olmuşdur.

Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli və ərazi bütövlüyümüzün bərpası taleyüklü bir vəzifə olaraq qarşıda durur. Dövlətimizin iqtisadi-hərbi qüdrəti, beynəlxalq aləmdə getdikcə güclənən mövqelərimiz və fəal siyasi-diplomatik səylərimiz bu ağrılı problemin Azərbaycanın milli maraqlarına uyğun həlli üçün səfərbər edilmişdir. Son illər ordumuzun cəbhədə qazandığı uğurlar da göstərir ki, əzəli və əbədi Azərbaycan torpağı Qarabağın düşmən tapdağından azad ediləcəyi və tarixi ədalətin zəfər çalacağı gün uzaqda deyildir.

Azərbaycan Respublikası hazırda özünün parlaq və davamlı inkişaf dövrünü yaşayır. Dünyanın müxtəlif guşələrində məskunlaşan, lakin qəlbi daim Azərbaycan eşqi ilə döyünən soydaşlarımız da bu tarixi prosesdən kənarda deyil və onların xalqımızın tərəqqisində, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində təqdirəlayiq xidmətləri yüksək qiymətləndirilməlidir.

"Ümidvaram ki, harada yaşamalarından asılı olmayaraq, soydaşlarımız məskunlaşdıqları ölkələrin həyatına inteqrasiya ilə yanaşı, öz milli kimliyini, mənəvi-əxlaqi dəyərlərini, tarixi Vətənlə bağlılığı qoruyacaq, Azərbaycanın bu günü və aydın sabahı naminə əməl və əqidə birliyi, sarsılmaz həmrəylik nümayiş etdirəcəklər. Xarici ölkələrdəki çoxsaylı diaspor təşkilatlarımızın gələcəkdə də əzmkar iradə və yüksək vətənpərvərliklə bu amallar uğrunda çalışacağına, xalqımızın və dövlətimizin şərəfli adını daim uca tutacağına inanıram", - deyə Prezident bildirib.

Dövlətimizin başçısı dünya azərbaycanlılarına uğurlar, cansağlığı, xoşbəxtlik və firavanlıq arzulayıb.

## BU SAYIMIZDA

## BÖYÜK ELMİ ŞURADA




2

## Tehran Tibb Universitetinin bir qrup əməkdaşı ATU-nun qonağı olub 3



## "İlin ən yaxşı tələbə elmi tədqiqatçısı" adı uğrunda Beynəlxalq müsabiqə 4



*Azərbaycan Tibb Universitetinin rektorluğu, Həmkarlar İttifaqı Komitəsi universitetin bütün əməkdaşlarını, professor-müəllim heyətini və tələbələrini Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edir!*

# Payız semestrinin imtahan sessiyasına hazırlığın vəziyyəti və imtahanların mütəşəkkil keçirilməsində universitet kollektivinin vəzifələri müzakirə olunub

**Böyük Elmi Şuranın dekabrın 26-da keçirilən növbəti iclasını açan universitetin rektoru, professor Gəray Gəraybəyli öncə Fizioterapiya və tibbi reabilitasiya kafedrasının müdiri, professor Əlişir Musayevi yubiley yaşı münasibətilə təbrik edib. Bundan sonra iclasın gündəliyini diqqətə çatdıran rektor "Azərbaycan Tibb Universitetində 2019/2020-ci tədris ilinin payız semestrinin imtahan sessiyasına hazırlığın vəziyyəti və imtahanların mütəşəkkil keçirilməsində universitet kollektivinin vəzifələri" barədə məruzə ilə çıxış etmək üçün sözü tədris və müalicə işləri üzrə prorektor, professor Sabir Əliyevə verib.**



İnkişaf etmiş ölkələrin davamlı tərəqqiyə təhsil vasitəsi ilə nail olduqlarını söyləyən prorektor qeyd edib ki, dövlətin gücü onun təbii sərvətləri ilə deyil, insan kapitalı, elmi potensialı ilə müəyyən edilir. Elm, təhsil bu gün artıq milli təhlükəsizliyin əsas amilləridir.

Məruzəçi "təhsil millətin gələcəyidir" deyən ümummilli lider Heydər Əliyevin siyasətini uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın xüsusi önəm verdiyi təhsil sistemində son illərdə qazanılan uğurlardan söhbət açıb: "Dünya İqtisadi Forumu tərəfindən açıqlanan "Qlobal Rəqabətlilik İndeksi-2019" hesabatında Azərbaycan ötən ilki göstərici ilə müqayisədə 11 pillə irəliləyib. Hazırda 141 ölkə arasında 58-ci yerdə qərarlaşan ölkəmiz 12 indikatordan 8-i üzrə MDB ölkələri arasında yüksək nəticələr əldə edib. Məsələn, təhsilin kəmiyyət və keyfiyyət parametrlərinə əsaslanan "Bacarıqlar" indeksi üzrə ölkəmiz 6 pillə irəliləyərək 48-ci, innovasiya bacarığı üzrə 3 pillə irəliləyərək 68-ci, işçilərin peşəkar inkişafı kateqoriyası üzrə 22 pillə irəliləyərək 34-cü, peşə təhsilinin keyfiyyət göstəricisinə görə 6 pillə irəliləyərək 43-cü, bacarıqlı işçi tapmaq asanlığı üzrə 2 pillə irəliləyərək 29-cu yeri tutub. Tədrisdə tənqidi düşüncə göstəricisi üzrə 7 pillə irəliləmişik və ölkəmiz 20-ci yerdədir".

Bu istiqamətdə universitetimizdə də məqsədyönlü iş aparıldığını vurğulayan S.Əliyev mütəxəssis hazırlığının səviyyəsinə nəzarət və onun qiymətləndirilməsinin həm semestr, həm də imtahan sessiyası dövründə aparıldığı, ona görə də təkcə universitet rəhbərliyi tərəfindən deyil, ölkə ictimaiyyəti və mətbuatı tərəfindən də izlənilərək daim diqqət mərkəzində saxlanıldığını xatırladıb. Bildirib ki, istər universitet rəhbərliyi və tədris hissəsi, istərsə də dekanlıqlar öz gündəlik fəaliyyətində dərsburaxma ilə barışmaz mövqedə dayanırlar. Belə ki, universitet üzrə cari tədris ilinin keçən 3 ayı ərzində xəstəliklə əlaqədar çox dərs buraxan 10 nəfər tələbəyə akademik məzuniyyət verilmişdir.

Kredit sistemi ilə aparılan təhsildə mövcud qaydalara toxunan prorektor tələbənin gündəlik cavabının 10 ballıq sistemlə qiymətləndirildiyini, bir sıra kafedraların gündəlik sorğularında 0-4 (I-III kursda tədris aparan kafedralar), digərlərində isə 8-10 balın (III-VI kursda tədris aparan kafedralar) üstünlük təşkil etdiyini, biliyin bu sistemlə düzgün qiymətləndirilməsində müəyyən çətinliklərin hələ də qaldığını diqqətə çatdırıb.

Məruzədə ali tibb təhsilinin əsas təhsili kimi rezidentura təhsilinin də mütəxəssis hazırlığında önəmli yer tutmasına geniş yer ayrılıb: "2019/2020-ci tədris ilində Dövlət İmtahan Mərkəzi tərəfindən I kursa 36 ixtisas üzrə 214 nəfər yerli və 21 nəfər xarici rezident qəbul olmuşdur. Halhazırda Azərbaycan Tibb Universiteti üzrə I-V kurslarda 36 ixtisas üzrə 668 rezident təhsil alır ki, onlardan 51 nəfəri xarici ölkə vətəndaşıdır.

Diplomdansonrakı rezidenturada mütəxəssis hazırlığı istər ölkə, istərsə də universitetimiz üçün yeni və çətin bir işdir. Lakin təhsilin bu pilləsində tədrisə 2-ci dərəcəli bir iş kimi baxmaq olmaz. Unutmayaq ki, rezidentura təhsilindən sonra məzunlarımız sərbəst həkim kimi fəaliyyət göstərəcəklər".

S.Əliyev payız semestrinin imtahan sessiyasına hazırlığın vəziyyəti, universitetə bu il qəbul olunmuş və ali məktəb həyatında ilk dəfə olaraq imtahan verəcək I kurs tələbələri ilə professor-müəllim heyətinin münasibəti üzərində xüsusi dayanıb. Onlara diqqət və qayğının bir qədər də artırılmasını zəruri sayıb: "Çalışmalıyıq ki, Prezident təqaüdçülərimiz kompüterlə test imtahanlarına ən azı 41 balla getsinlər. Onu da qeyd etməliyəm ki, hər il universitetə 24-26 Prezident təqaüdçüsü daxil olsa da, onlar kredit sisteminin ağır şərtlərinə davam gətirmir və əlaçılıqdan düşürlər. O səbəbdəndir ki, hər il universitetimizə 24-dən artıq Prezident təqaüdçüsü qəbul olunsa da, hazırda təhsil alan Prezident təqaüdçülərimizin ümumi sayı 45 nəfərdir, halbuki onlar 150 nəfər də ola bilərdilər. Təkcə Prezident təqaüdçülərinə deyil, sessiya dövründə müraciət edən bütün tələbələrə konsultativ yardım göstərilməlidir. Təhsilin kredit sistemi ilə təşkili qaydalarına görə hər bir tələbə sərbəst işlərinin ən azı 40%-ni qrup müəlliminin iştirakı ilə birgə yerinə yetirməlidir".

Universitetdə təhsil alan xarici ölkə vətəndaşlarının statistikasını da açıqlayan prorektor ATU-da 31 ölkədən 1795 nəfər tələbənin təhsil aldığını, təhsil almaq üçün xarici ölkələrdən müraciət edən tələbələrin sayının ildən-ilə artdığını, artıq 18 ildir ki, universitetimizdə tədrisin ingilis dilində də aparıldığını vurğulayıb.

Hesabat məruzəsində tədris-metodik işin vəziyyəti, tələbələrin fakültələr və ölkələr üzrə sayı, aralıq qiymətləndirmənin nəticələri, Apellyasiya Komissiyasının, operativ qərargahın fəaliyyəti və digər vacib məsələlər də öz əksini tapıb.

İmtahanların müvafiq təlimata və rektorun əmrinə uyğun olaraq mütəşəkkil, obyektiv və aşkarlıq şəraitində keçirilməsinin bu işin yerlərdə necə təşkil olunmasından asılı olduğunu diqqətə çatdıran S.Əliyev çıxışının sonunda professor-müəllim heyətinin payız semestrinin imtahan sessiyasını müvəffəqiyyətlə aparacağına əminliyini ifadə edib.

Məruzə ətrafında çıxış edən kafedra müdirləri Əlihüseyn Hidayətov, Eldar Qasımov, Fariz Camalov və Eldar Qarayev hesabatı qənaətbəxş qiymətləndirərək öz fikirlərini şura üzvlərinin diqqətinə çatdırıblar. Universitetdə aparılan islahatların tədrisin yaxşılaşdırılmasına müsbət təsir göstərdiyini söyləyən natiqlər tələbələrlə müəllimlər arasında yaranan anlaşılmazlıqların həllinə, bacarıqlar üzrə test suallarının hazırlanmasına, eyni fəndən əvvəl və sonra verilən imtahanların fərqli nəticələrinə dair təkliflərini də səsləndiriblər.

Müzakirələri yekunlaşdıran rektor burada səslənən təkliflərlə razılaşdığını bildirərək Sabir müəllimin Böyük Elmi Şurada sayca 70-ci məruzəsini yüksək qiymətləndirib. Həm hesabat məruzəsində, həm də çıxışlarda vacib məqamlara toxunulduğunu vurğulayan universitet rəhbəri həmin məsələlərə öz münasibətini açıqlayaraq tədrisin keyfiyyətinin yaxşılaşdırılması üçün ayrı-ayrılıqda aparılan heç bir tədbirin faydalı olmayacağını, yalnız kompleks şəkildə həyata keçirilən tədbirlərin real nəticələr verə biləcəyini diqqətə çatdırıb.

Professor G.Gəraybəyli yuxarı kurslarda tələbələrin dərslərə maraq göstərməməsinin səbəblərinə, bu problemin həlli yollarına da aydınlıq gətirib. Rezidenturaya qəbulun yeni qaydalarının Nazirlər Kabineti tərəfindən təsdiqləndiyini şura üzvlərinin nəzərinə çatdıran rektor bu yeniliyi irəliyə atılan böyük addım kimi dəyərləndirib. Bildirib ki, yeni qayda tələbələrə III kursdan sonra nəzəri bloku əhatə edən fənlərdən imtahan vermək imkanı yaradır: "Həm də nəzəri bloka aid imtahanlar ballarla yox, məqbul və qeyri məqbul formatda qiymətləndiriləcək. Əgər tələbə I, II, III kursların proqramlarında olan mövzuları yaxşı mənimsəyibsə, onun əlavə pul xərcləyib repititor yanına və ya kursa getməsinə ehtiyac qalmır. Yəni öz biliyinə əmin olan tələbə Dövlət İmtahan Mərkəzində imtahan verib məqbul qiymət alarsa, ona bu haqda verilən sənəd 5 il qüvvədə saxlanılır. Beləliklə, IV, V, VI kurslarda tələbə kliniki fənlərlə daha çox məşğul olmaq imkanı qazanır. III kursdan sonra nəzəri fənlərdən imtahan verməyən tələbə həmin imtahanları IV və V kursda da verə bilir. Hətta hər bir tələbənin VI kursdan sonra həm nəzəri, həm də kliniki fənlərdən imtahana girmək səlahiyyətləri var".



Tələbələrin biliyinin qiymətləndirilməsi istiqamətində çoxlu işlər aparıldığını xatırladan rektor aralıq qiymətləndirmə prosesini bir qədər təkmilləşdirməyə də zərurət yarandığını deyib. Eyni zamanda testlərin sayının azlığı, keyfiyyətinin aşağı olmasına da toxunan professor G.Gəraybəyli qeyd edib ki, gələcəkdə aralıq qiymətləndirməyə görə verilən balın artırılması nəzərdə tutulur.

Professor G.Gəraybəyli hansısa kafedranın özü üçün qaydalar müəyyən etməsinə iradını bildirərək referatların yazılması və qəbul edilməsinin də özünü doğrultmadığını vurğulayıb. Həmçinin, bəzi kafedra müdirlərinin tədris prosesinə nəzarətinin çox zəif olması, universitetin daxili qaydalarına hər kəsin eyni qaydada əməl etməsi, bal-reytinq attestasiyası və imtahan nəzarətçilərinin necə seçilməsi barədə fikirlərini də şura üzvləri ilə bölüşüb.

Yekun nitqində tədris prosesinin məhsulu olan tələbənin yüksək səviyyəli mütəxəssis kimi yetişməsində professor-müəllim heyətinin üzərinə böyük məsuliyyət düşdüyünü önə çəkən rektor, bu istiqamətdə islahatların davam edəcəyini diqqətə çatdırıb.

İclasın sonunda şura üzvlərinə İ.Seçenov adına I Moskva Tibb Universitetinin Bakı filialının sifarişi ilə Dövlət İmtahan Mərkəzi tərəfindən əsasən rezidenturaya hazırlaşan məzunlar üçün bir neçə dərs vəsaitinin hazırlanması haqqında məlumat verilib. Statuslarının müəyyənləşdirilməsi məqsədilə elmi şuraya təqdim olunan həmin əlyazmalar dərs vəsaiti kimi təsdiqlənib. Böyük Elmi Şura digər əlyazmaların da düzəliş edildikdən sonra çapına razılıq verib və müsabiqə məsələlərini həll etməklə öz işini yekunlaşdırıb.

**Arif MƏMMƏDLİ**

# Azərbaycan Nevrologiya Həftəsi çərçivəsində konfranslar keçirilib




**Dekabrın 18-də Bakıda Azərbaycan Nevrologiya Həftəsi çərçivəsində I Azərbaycan Uşaq Nevroloqları Konfransı və VII Azərbaycan Nevroloqları Konfransı keçirilib. Tədbirdə ölkəmizin nevroloqları ilə yanaşı, Türkiyə, Qazaxıstan, Rusiya və s. ölkələrdən gələn mütəxəssislər, o cümlədən ilk dəfə olaraq Avropa Uşaq Nevroloqları Cəmiyyətinin nümayəndələri iştirak ediblər.**

Tədbirdə çıxış edən Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun nevrologiya və klinik neyrofiziologiya kafedrasının müdiri, Azərbaycan Milli Nevroloqlar Assosiasiyasının sədri, professor Rəna Şirəliyeva həftə çərçivəsində bir sıra tibb müəssisələrində tədbirlər keçirildiyini və nevrologiyanın aktiv problemlərinin müzakirə olunduğunu bildirib. Professorun sözlərinə görə, konfransda ilk dəfə olaraq Avropa Uşaq Nevroloqları Cəmiyyətinin nümayəndələri də iştirak edirlər.

R.Şirəliyeva ölkəmizdə nevroloqların hazırlanması bazasının Azərbaycan Tibb Universiteti və Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu olduğunu qeyd edib. Azərbaycan nevroloqlarının uğurları və görüləcək işlər haqqında məlumat verən professor tibb elminin bu sahəsinin sabahının gənc və istedadlı nevroloqların əllərində olduğunu diqqətə çatdırıb.

Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli Azərbaycanda tibb elminə və təhsilinə göstərilən qayğı nəticəsində belə mötəbər tədbirlərin keçirildiyini vurğulayıb. Onun sözlərinə görə, belə beynəlxalq tədbirlərdə iştirak edən alimlərin, mütəxəssislərin məruzələri həkimlər, tələbələr, rezidentlər üçün olduqca faydalıdır.

Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru, professor Nazim Qasımov Azərbaycan Nevrologiya Həftəsi çərçivəsində keçirilən tədbirlərin təkcə nevroloqlar üçün deyil, digər sahələrin həkimləri üçün də əhəmiyyətindən danışıb,




belə konfransların keçirilməsinin ölkəmizdə nevrologiya elminin inkişafının göstəricisi olduğunu diqqətə çatdırıb.

Tədbir bədii hissə, daha sonra məruzələrlə davam etdirilib. Konfransda ATU-nu məruzələrlə terapevtik və pediatrik propedevtika kafedrasının müdiri, professor İbrahim İsayev və I uşaq xəstəlikləri kafedrasının dosenti Nigar Sədiyeva təmsil ediblər.

# ATU-nun həyatında 100-ə yaxın ağac əkilib



**İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə ölkə üzrə ağacəkmə kampaniyasına Azərbaycan Tibb Universiteti də öz töhfəsini verib. Universitetin həyatında keçirilən aksiyada həm abadlıq işləri görülüb, həm də ağaclar əkilib.**

Başda ATU-nun rektoru, professor Gəray Gəraybəyli olmaqla universitet rəhbərliyinin nümayəndələri, fakültə və şöbə rəhbərləri universitet ərazisində ağac əkiblər. Aksiya zamanı professor Gəray Gəraybəyli universitetin həyatində planlaşdırılan abadlıq və təmir işləri ilə maraqlanıb.

ATU-nun Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımovun sözlərinə görə, aksiya zamanı universitet həyatində 100-ə yaxın ağac əkilib. Aksiyanın məqsədi ətraf mühitin qorunması, ekoloji tarazlığın bərpası işində iştirak etmək, həmçinin universitet ərazisində abadlıq işlərinin aparılmasına yardım etməkdən ibarətdir.

# Beynəlxalq konfransda damar cərrahlığının aktual məsələləri və son yeniliklər müzakirə olunub

**Dekabrın 13-də Tədris Cərrahiyyə Klinikasında "Damar cərrahlığının aktual məsələləri və son yeniliklər" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib.**



Tədbiri giriş sözü ilə açan universitetin elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov bu günkü konfrasın səhiyyənin və tibb elminin ən vacib sahələrindən biri olan, bəşəriyyətin uzun illərdir ki, bir nömrəli tibbi problemi sayılan ürək-damar xəstəliklərinə həsr edildiyini bildirib. Ürək-damar xəstəliklərinin bütün dünyada ümumi göstəricilərinə görə hələ də birinci yerdə qaldığını deyən prorektor qeyd edib ki, son illər bu xəstəliklərin vaxtında müayinəsi və müalicəsinə xüsusi diqqət yetirilir. Belə ki, çoxsaylı tədbirlər həyata keçirilir, müxtəlif milli proqramlar qəbul edilir və geniş miqyaslı təşkilati məsələlər öz həllini tapır.

Dosent R.Bəylərov qardaş Türkiyədən dünyada məşhur olan ürək-damar cərrahlarının tədbirə dəvət olunmasını və ustad dərsləri keçəcəklərini konfransın əsas özəlliyi kimi dəyərləndirib. Bu konfransın məhsuldarlığı, aktual məsələlərin müzakirəsi ilə yadda qalacağına, eləcə də müalicə işi ilə məşğul olan həkimlərimiz üçün gündəlik fəaliyyətlərində faydalı olacağına əminliyini ifadə edib.

Çıxışının sonunda universitetimizin rektoru, professor Gəray Gəraybəylinin salamlarını və ən xoş arzularını konfrans iştirakçılarına çatdıran prorektor ürək-damar xəstəliklərinin ən son müalicə üsullarının nəticələrinə aid bir çox yeniliklərin ölkəmizdə ilk dəfə olaraq burada səslənəcəyini vurğulayıb və konfransın işinə uğurlar arzulayıb.

"Burası bizim Vətənimiz, Türkiyədən, İstanbuldan hər birinizə salam gətirmişəm" – deyən İstinye Universiteti Hospitalı, Damar Sağlamlığı və Yaşam Mərkəzinin rəhbəri, kardiovaskulyar cərrahı, professor Yusif Kalko konfransın gedişində öz bilgilərini, təcrübələrini azərbaycanlı kolleqaları ilə bölüşəcəklərini söyləyib.

Sonra konfrans öz işini professorlar S.Hadıyev, M.Kərimov, K.Musayev, A.Memiş, F.Abbasov, N.Abışov və R.Mahmudovun moderatorluğu ilə davam etdirib. Ürək-damar cərrahiyyəsinin nəzəri və praktiki məsələlərinə həsr olunmuş məruzələr dinlənilib. ATU-nun Tədris Cərrahiyyə Klinikasının ürək-damar cərrahiyyəsi şöbəsinin elmi rəhbəri, professor M.Kərimov, Mərkəzi Klinik Xəstəxananın baş həkimi, ATU-



nun I cərrahi xəstəliklər kafedrasının professoru K.Musayev, M.Topçubaşov adına ECM-nin damar cərrahiyyəsi şöbəsinin müdiri, professor N.Abışov, RDM-nin Ürək Mərkəzinin rəhbəri A.Əmrah, Mərkəzi Klinik Xəstəxananın damar cərrahiyyəsi şöbəsinin cərrahı R.Əliyevin ayrı-ayrı mövzularda məruzələri konfrans iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb.

Kardiovaskulyar cərrahı, professor Yusif Kalko "İnsult keçirmiş xəstələrdə müasir yanaşmalar", "Diabetik ayaqda distal okkluziya və müalicə", "Minimal invaziv periferik damar cərrahiyyəsi" mövzularında, Türkiyənin Hərbi Tibb Xidmətlərinin komandiri, cərrah xidməti generalı, professor Ufik Demirkılıc isə "Robotik ürək cərrahiyyəsi" mövzusunda ustad dərsləri keçiblər.

Konfrans məruzələrə dair sual-cavab və müzakirələrlə yekunlaşıb.

# Tehran Tibb Universitetinin bir qrup əməkdaşı ATU-nun qonağı olub

**Tehran Tibb Universitetinin bir qrup nümayəndə heyəti – adıçəkilən universitetin Qlobal strategiyalar və beynəlxalq işlər üzrə prorektoru, professor Ramin Kordi, Müalicə işləri üzrə prorektor, dosent Mehdi Rezaei, Rusiya və Qafqaz ölkələri üzrə məsul şəxs Əlirza Namazi, Ziaeian Xəstəxanasının direktoru Məhəmməd Affətpənah Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında olublar.**





Qonaqları klinikanın direktoru, professor Surxay Hadıyev qəbul edib. Klinika barədə geniş məlumat verən professor S.Hadıyev hazırda 800-ə yaxın tələbənin, 300-dən çox rezidentin burada rahat şəkildə təcrübə keçdiyini bildirib. Sonra klinikadakı yeniliklərdən söhbət açıb və şöbələrdə istifadə olunan avadanlıqlar və s. barədə onlara ətraflı məlumat verib.

Tehran Tibb Universitetinin Qlobal strategiyalar və beynəlxalq işlər üzrə prorektoru, professor Ramin Kordi də öz növbəsində təmsil olunduğu unveristet barəsində geniş açıqlama ilə çıxış edib. Hər iki universitet arasında həkim, tələbə, rezident və o cümlədən təcrübə mübadiləsinin aparılmasının vacibliyinə toxunub.

Tərəflər bu istiqamətdə atılacaq hər hansı addımın təqdirəlayiq olduğunu qeyd ediblər.

Həmçinin, qonaqlara klinikanın bir sıra şöbələrinin iş şəraiti və ümumi vəziyyətlə yaxından tanış olmaq üçün şərait yaradılıb.

Nümayəndə heyətini universitetin elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov da qəbul edib. O, ATU-da 1300-ə yaxın akademik personalın çalışdığını, onlardan 343-nün tibb elmləri doktoru, dosent və 140-a yaxınının isə professor olduğunu bildirib.

ATU-nun ən çox xarici tələbələrin təhsil aldığı universitetlər sırasında olduğunu vurğulayan dosent R.Bəylərov iranlı tələbələrin əcnəbi tələbələr arasında üstünlük təşkil etdiyini qeyd edib. Tələbələrin rahat şəkildə təcrübə keçmələri üçün universitetin nəzdində müasir avadanlıqlarla təchiz edilmiş klinikaların olduğunu bildirib: "Siz bu gün universitetimizin nəzdində fəaliyyət göstərən klinkalarda olmuş, tələbələrin təcrübə qazanmaları və xəstələrin müalicəsi üçün yaradılan yüksək şəraitlə tanış olmusunuz. Bizim ilk klinikalarımız ulu öndər Heydər Əliyevin təşəbüsü ilə inşa edilib və bu təşəbbüs sonra cənab Prezident İlham Əliyev tərəfindən davam etdirilibdir."

Sonra tərəflər həkim, tələbə və təcrübə mübadiləsi və bir sıra məsələlərlə bağlı müzakirələr aparıb, gələcəkdə görüləcək işlərdən danışıblar. Qonaqlar Tədris Terapevtik Klinkada da olduqlarını və hər iki klinikadakı vəziyyətdən və onlara göstərilən isti münasibətdən razı qaldıqlarını bildiriblər.

Qeyd edək ki, görüşlərdə qonaqlara ATU-nun Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov, müdir müavini Nigar Ələkbərova və mübadilə proqramları üzrə koordinator Aygün Babayeva müşaiyət ediblər.

**ATU-nun mətbuat xidməti**

# "İlin ən yaxşı tələbə elmi tədqiqatçısı" adı uğrunda Beynəlxalq müsabiqə

**Dekabrın 19-da Tələbə Elmi Cəmiyyəti Tədris Terapevtik Klinikasında "İlin ən yaxşı tələbə elmi tədqiqatçısı" adı uğrunda Beynəlxalq müsabiqə keçirib.**



Açılış nitqində tədbir iştirakçılarına təşkilat komitəsi adından dərin təşəkkürünü bildirən ATU-nun tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev qeyd edib ki, TEC-in təşkil etdiyi bu tədbirlər Azərbaycan Tibb Universitetinin həyatında artıq bir ənənəyə çevrilb və hər il bayram əhval- ruhiyəsi ilə təbabətin müxtəlif bölmələri üzrə davamlı olaraq beynəlxalq konqreslər təşkil edilir. Bu il də ənənəvi olaraq TEC-in təşkil etdiyi "İlin ən yaxşı tələbə elmi tədqiqtçısı" adı uğrunda Beynəlxalq müsabiqənin keçirildiyini vurğulayan S.Əliyev Rusiyanın və Özbəkistanın müxtəlif universitetlərindən gəlmiş gənc alim, həkim və tələbənin bugünkü toplantıda iştirak etdiyini deyib: "Bütün bunlar onu göstərir ki, dünya tibb mütəxəssisləri təbabətin qarşısında duran bir çox problemlərin həlli yolunda birgə səylər göstərməyə hazırdılar. Müasir dövrdə elmi əməkdaşlığın formaları və metodları da müxtəlifdir. İndi dünyanın inişaf etmiş ölkələri elmin və təhsilin inkişafına çox böyük önəm verir və bu sahəyə yüksək miqdarda vəsait ayırırlar. Mənə elə gəlir ki, belə konfranslar dünyanın bir çox universitetləri ilə davamlı şəkildə təşkil olunmalı və bu sahədə bir sıra təbliğat xarakterli işlər görülməlidir. Hər il olduğu kimi, bu il də təşkil edilən bu möhtəşəm toplantı gələcəkdə elmi işlərlə məşğul olmaq istəyən gənc mütəxəssislərimizin geniş marağına səbəb olacaq və onların peşə karyerasında mühüm rol oynayacaq".

Otuz ildən artıq bir dövr ərzində bu sahəyə rəhbərlik edən professor Amaliya Əyyubovanın əməyini yüksək qiymətləndirən prorektor, gənc tədqiqatçıların yetişdirilməsində TEC-in sədri, dosent Müşviq Həsənovun da fəaliyyətindən razılığını bildirib və ayrı-ayrı ölkələrdən olan tibb mütəxəssislərinin, tələbələrin bugünkü müsabiqədə iştirakını universitetimizin beynəlxalq aləmdə artan nüfuzunun göstəricisi kimi dəyərləndirib.

Sonra məruzə etmək üçün söz gənc elmi- tədqiqatçılara verilib.

ATU-nun II müalicə profilaktika fakültəsinin III kurs tələbəsi Səma Qulizadə, Stomatologiya fakültəsinin II kurs tələbəsi Mədinə Quçabəyova, Özbəkistanın Daşkənd Tibb Akademiyasının tələbələri S.Sizdikxodjaev və S.Musoev, Rusiyanın Tümen Tibb Universitetinin IV kurs tələbəsi Nurana Alieva və başqalarının apardıqları elmi- tədqiqat işlərindən bəhs edən məruzələri dinlənilib.

Müsabiqənin gedişatında münsiflər heyətinin üzvləri çıxış edərək ürək sözlərini tədbir iştirakçıları ilə bölüşüblər. Onlar yüksək səviyyədə keçən beynəlxalq tədbirin uğurlarından söhbət açıb və təhsilimizin, səhiyyəmizin gələcəyi olan



tələbələrə böyük ümid bəslədiklərini dilə gətiriblər.

TEC-in sədri, dosent Müşfiq Həsənov bu Beynəlxalq tədbirin keçirilməsi üçün yaradılan yüksək şəraitə görə ilk növbədə universitetin rektoru, professor Gəray Gəraybəyliyə təşəkkür edib. Plenar iclaslarda tibbin bütün sahələrini əhatə edən çox maraqlı məruzələrin dinlənildiyini söyləyən M. Həsənov tədqiqatçı tələbələri, onların elmi rəhbərlərini təbrik edərək bütün müsabiqə iştirakçılarına və eləcə də qonaqlara bu mötəbər tədbirə qatıldıqları üçün bir daha hörmət və ehtiramını çatdırıb.

Məlumat üçün qeyd edək ki, beynəlxalq müsabiqənin gündəliyinə əsasən, ümumilikdə 16 elmi iş məruzə edilib, 12 elmi işin isə poster nümayişi olunub.

Sonda qaliblər diplom və sertifikatlarla təltif ediliblər.

**Mənsur ƏLƏKBƏRLİ**

# Görkəmli alimin xatirə yubileyi keçirilib

**Dekabrın 27-də Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında tibb elmləri doktoru, professor, əməkdar elm xadimi İsmayıl Məmməd oğlu Məmmədovun 100 illik yubileyi qeyd edilib.**

Səhiyyə nazirinə, ATU-nun rəhbərliyinə, tədbirin düzənlənməsində zəhməti keçən hər kəsə, o cümlədən iştirakçılara professor İ.Məmmədovun ailəsi və qohumları adından dərin təşəkkürünü bildirib.



Yubiley tədbirini ATU-nun tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev açaraq yubilyarın həyat və fəaliyyətindən geniş söhbət açıb. Professor İ.Məmmədovun bir alim, ziyalı kimi Azərbaycanda çoxsaylı gənc alimlərin yetişməsində müstəsna rolunun olması ilə bağlı tədbir iştirakçılarına ətraflı məlumat verib.



Sonra I Cərrahi xəstəliklər kafedrasının müdiri, AMEA-nın müxbir üzvü, professor Nuru Bayramov görkəmli alimin keçdiyi həyat yoluna, elmi və həkimlik fəaliyyətinə ekskursiya edib. Onun II Dünya Müharibəsi zamanı Litvada və Leninqradda (indiki Sankt-Peterburq) keçdiyi ağır həyat yolundan, Leninqradda 900 günlük mühasirə zamanı göstərdiyi fədakarlıqdan danışıb. Bu xidmətlərinə görə "Qırmızı ulduz" və digər medallara təltif olunduğunu qeyd edib. Sonra Azərbaycan Tibb İnstitutunda göstərdiyi fəaliyyətdən, Cərrahi xəstəliklər kafedrasına rəhbərlik etdiyi dövrdən söhbət açıb.

Professorlardan Çingiz Quliyev, Saday Hənifəyev, dosentlərdən Rəfael Mehdiyev, Səxavət Əliyev də alimlə bağlı xoş təəssüratlarını bölüşüb, maraqlı xatirələrini danışıblar. Həmçinin, alimin keçdiyi həyat yolunun indiki gəclərə bir örnək olacağını vurğulayıblar.

Sonda qohumu Əli Həsənov çıxış edib. O, yüksək səviyyəli belə bir tədbirin təşkili üçün

Qeyd edək ki, professor İ.Məmmədov 1919-cu il dekabrın 27-də Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Nehrəm kəndində anadan olub. II Dünya Müharibəsinin qanlı-qadalı günlərinin şahidi olub. Çoxsaylı yaralılar onun şəfqətli əllərinin sayəsində şəfa taparaq yenidən həyata qayıdıb. 1953-cı ildə İ.Pavlov adına Leninqrad Dövlət Tibb İnstitutunu bitirib. 1958-ci ildə namizədlik, 1969-cu ildə doktorluq dissertasiyası müdafiə edib. 60-a qədər elmi əsərin, 120 məqalənin, 3 monoqrafiyanın müəllifi olan professor İ.Məmmədov uzun sürən ağır xəstəlikdən sonra 2006-cı il noyabrın 24-də vəfat edib. Öz vəsiyyətinə görə, dünyaya göz açdığı Nehrəm kənd qəbristanlığında dəfn olunub.

Onun parlaq xatirəsi yaxınlarının, tələbələrinin, müəllim kollektivinin qəlbində daim yaşayacaqdır.

**Qabil ABDULLAYEV**

# Rektoryanı şuranın qərarına əsasən, 4 tələbəyə töhmət verildi

**◆ Azərbaycan Tibb Universitetinin rektoryanı şurasının növbəti toplantısı keçirilib. Toplantıda 2019/2020-ci tədris ilinin payız semestrində aparılan aralıq qiymətləndirmənin nəticələri haqqında müvafiq şöbələrin hesabatı dinlənilib.**



ATU-nun rektoru, professor Gəray Gəraybəyli 2019/2020-ci tədris ilinin paylz semestrinin qış imtahan sessiyasına hazırlığın vəziyyəti ilə maraqlanıb, görüləcək işlər haqqında danışıb.

Şuranın qərarına əsasən, II müalicə-profilaktika fakültəsinin III kurs 317A3 qrup tələbəsi Əvəz Yusubov universitetin nizam-intizam qaydalarını pozduğuna görə töhmət alıb. Eləcə də, ATU-nun hazırlıq kursunun tələbələri Negar Mohammadi, Maryam Hosseini Ozarlou və Mirhossein Hosseinizarlouya dərsdə nizam-intizam qaydalarını pozduqları üçün (dərs zamanı tibbi xalat geyməkdən imtina ediblər) şuranın qərarına əsasən töhmət verilib.

Qeyd edək ki, toplantıda universitetin rektoru, prorektorları, şöbə müdirləri, fakültə rəhbərləri və tələbələr iştirak ediblər. Tədbirdə universitetdaxili bir çox məsələlərə baxılıb, müzakirələr aparılıb.

# Tələbələr aralıq qiymətləndirməni belə dəyərləndirdilər

**Azərbaycan Tibb Universitetində hər fakültə üzrə rəhbər nümayəndələrin aşağı kurs tələbələri ilə görüşləri davam edir. Növbəti belə görüş dekabrın 17-də I Müalicə profilaktika fakültəsinin I və II kurs tələbələri ilə baş tutub.**





Fakültə dekanı, dosent Elşad Novruzovun sözlərinə görə, görüşdə aralıq qiymətləndirmənin (kollokvium) gedişi ilə bağlı tələbələrin fikirləri və iradları, prosesin daha effektiv olması üçün təklifləri dinlənilib. Qeyd olunub ki, bir gün ərzində keçirilən ikimərhələli aralıq qiymətləndirmədə fərqli sualların salınması, sualların sayının artırılması məqsədəuyğundur. Çünki belə olan zaman birinci mərhələdə kollokviumdan keçən tələbələr sualların cavabını digərlərinə söyləyir. Həmçinin, qiymətləndirmə üçün testlərin quruluşunun dəyişdirilməsi təklif edilib.

E.Novruzovun sözlərinə görə, fakültə rəhbərliyinin iştirak etdiyi görüşdə tələbələr digər məsələlərə də diqqət çəkiblər: "Məsələn, qeyd olundu ki, 3 həftə davam edən aralıq qiymətləndirmə zamanı tələbələrin ixtisas fənni ilə məşğul olmasına vaxtları qalmır. Ona görə də qiymətləndirmənin tam bir həftədə aparılması və bu müddət ərzində dərslərin təxirə salınması təklif olundu. Belə olarsa, tələbələr digər fənlərdən geri qalmazlar. Digər məsələ - adətən ikinci aralıq qiymətləndirməyə birinci sınağın sualları da salınır. Tələbələr bu sualların fərləndirilməsini də istədilər".

I Müalicə profilaktika fakültəsinin I və II-ci kurs tələbələri ilə görüşdə ATU-nun tədris hissə müdiri, dosent Samir Cavadov, təhsilin keyfiyyətinin təminatı və innovasiya şöbəsinin müdiri, dosent Nigar Sədiyeva və fakültənin dekan müavini Mahir Quliyev iştirak ediblər. Tələbələrin qaldırdığı məsələlərin bəziləri yerindəcə öz həllini tapıb. Digər təkliflər isə ətraflı müzakirə olunaraq yekun qərar verilməsi üçün universitet rəhbərliyinə təqdim edilib.

**ATU-nun mətbuat xidməti**

*Azərbaycan Tibb Universitetinin 90 illiyi qarşında*

# DAXİLİ XƏSTƏLİKLƏR KAFEDRASININ TARİXİ

**Kafedra öz tarixinin başlanğıcını 1920-ci ilin may ayında F.Əfəndiyev adına 4 №-li Klinik Xəstəxanada təşkil edilən fakültətiv terapiya kafedrasından götürmüşdür. O vaxtlar L.Paster adına xəstəxana adlanan bu tibb müəssisəsində sonralar Ölkə Patologiyası İnstitutu, 1935-ci ildə isə Klinik Elmi-Tədqiqat İnstitutu yaradıldı. İnstituta, eyni zamanda Diaqnostika və Fakültətiv terapiyası kafedralarına Peterburq Tibb Universitetindən gəlmiş professor A.Levin rəhbərlik edirdi.**



1926-cı ildə A.Levinin Leninqrada köçməsi ilə əlaqədar olaraq, kafedranın rəhbərliyi Saratov Universitetindən dəvət edilmiş professor İ.Qranstrema tapşırıldı.

1927-ci ildə isə kafedra müdiri vəzifəsinə professor Konstantin Aleksandroviç Yeqorov təyin edildi. Bir müddət keçmiş Paster adına xəstəxanada yerləşmiş kafedranın çarpayı fondu o zaman 45 idi.

O dövrdə fakültə terapiyası kafedrası və onun klinikası olduğu ərazidə Azərbaycan ET Klinik İnstitutunun I terapiya şöbəsi yaradılmışdır.

1931-ci ildən fakültə terapiyası kafedrasına rəhbərlik edən professor K.Yeqorovun səyi nəticəsində I terapevtik şöbənin nəzdində 18 Naftalanda 18 çarpayılıq müalicə şöbəsi təşkil edilmişdir.

1933-cü ildə Şəki, Zaqatala, Balakən rayonlarından 4 №-li xəstəxananın nəzdində yerləşən I terapiya kafedrasına uru olan xəstələrin teztez daxil olduğunu nəzərə alaraq, kafedranın müdiri, professor K.Yeqorovun təklifi ilə professorlar İ.Orucov, Z.Məmmədov həmin rayonlara ezamiyyətə göndərilir.

Professor K.Yeqorov kafedraya 1957-ci ilə qədər rəhbərlik etmişdir. Sonralar Azərbaycan Tibb İnstitutunun inkişafında böyük əməyi olmuş professor Əziz Məmmədkərim oğlu Əliyev də əmək fəaliyyətinə bu kafedrada başlamışdır. K.Yeqorovun rəhbərliyi dövründə kafedrada əsasən Azərbaycanın ölkə patologiyasına və kurort amillərinin müalicəvi təsirinə dair elmi-tədqiqat işləri aparılırdı. Kafedrada tələbələrin dərsliklə təmin edilməsinə də qayğı göstərilirdi. 1934-cü ildə Ə.Əliyevin «Tələbə və həkimlər üçün qısa dərslik» və «Klinik analizlər» kitablarının çap edilməsi bu qayğının nəticəsi idi.

1934-cü ildə kafedranın bazasında Zaqafqaziyada ilk endokrinologiya şöbəsi yaradıldı. 30 xəstə yeri olan bu şöbəyə professor İsgəndər Məmmədbağır oğlu Orucov rəhbərlik edirdi.

1957-ci ildən 1970-ci ilə qədər fakültativ terapiya kafedrasına İ.Orucov (1899–1978) rəhbərlik etmişdir. O, 1937-ci ildə doktorluq dissertasiyası müdafiə etmiş, 1938-ci ildə professor vəzifəsinə seçilmişdir və Azərbaycanda endokrinologiyanın banilərindən biridir. İ.Orucov Azərbaycan Endokrinologiya Cəmiyyətinin təşkilatçısı və sədri (1957-ci ildən) olmuş, «Qırmızı Əmək Bayrağı» ordeni və medallarla təltif edilmişdir.

İ.Orucovun rəhbərliyi dövründə kafedrada aparılan elmi-tədqiqat işləri əsasən Azərbaycanda çox yayılmış endemik ur xəstəliyinin epidemiologiyası, klinikası, müalicə və profilaktikası problemlərinə, həmçinin şəkərli diabet xəstəliyinə həsr edilmişdir. Bu tədqiqatların nəticələri alimin rusca yazdığı «Azərbaycanda endemik ur xəstəliyi» (1943) adlı monoqrafiyasında öz əksini tapmışdır. İ.Orucov həm də "Terapevtik xəstələrin müayinəsinə dair dərs vəsaiti" (1973) və «Terapevtik xəstələrin müayinəsi» (1975) adlı kitabların müəllifi olmuşdur.

1970–1990-cı illərdə kafedraya ə.e.x., professor Tamerlan Əziz oğlu Əliyev rəhbərlik edib, dövlət mükafatı laureatı olmuş, əməkdar xadim fəxri adına (1981) layiq görülmüş, «Şərəf nişanı» ordeni və «Səhiyyə əlaçısı» döş nişanı ilə təltif edilmişdir.

T.Əliyevin təşəbbüsü və bilavasitə iştirakı ilə respublikamızda endokrinologiya və terapiya üzrə elmi-tədqiqat aparan alimlərə Moskvanın, Tbilisinin və keçmiş SSRİ-nin digər şəhərlərinin aparıcı elmi mərkəzləri ilə əməkdaşlıq aparmaq üçün şərait yaradılmışdır.

1981-ci ildə Endokrinoloqların Ümumittifaq Cəmiyyətinin endokrin sistem patologiyasına dair səyyar elmi sessiyasının məhz Bakıda təşkil edilməsi və müvəffəqiyyətlə keçirilməsi professor T.Əliyevin səyi, aktiv yardımı sayəsində mümkün olmuşdur. T.Əliyevin geniş fəaliyyəti respublikamızda endokrinologiya və kardiologiya elminin inkişafına təkan vermişdir.

Professor T.Əliyevin şəxsi iştirakı və səyi nəticəsində 1975-ci ildə 4 №-li Klinik Xəstəxananın bazasında 90 çarpayılıq endokrinoloji şöbə yaradılmışdır. Onun fakültə terapiyası kafedrasına rəhbərlik etdiyi dövrdə Bakı şəhərinin müxtəlif klinika və poliklinikalarından, respublikanın rayonlarından və hətta bəzi xarici ölkələrdən (İran, Suriya, Türkiyə) bu kafedraya endokrinologiya sahəsində təkmilləşmə məqsədilə həkimlər ezam edilirdi.

Azərbaycanda kardioloji xidmət sisteminin elmi təşkili və bu sahələrdə kadrlar hazırlanması sahəsində T.Əliyevin əvəzsiz xidməti olmuşdur. İndiyə qədər fəaliyyətdə olan akademik C.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutu T.Əliyevin təşəbbüsü və köməkliyi ilə yaradılmışdır.

T.Əliyevin rəhbərliyi altında 25 elmlər namizədi və 5 elmlər doktoru hazırlanmışdır və onlar hazırda müxtəlif kafedraların rəhbərləri, endokrinologiya və kardiologiya sahəsində aparıcı mütəxəssislərdir.

Hazırda kafedraya ə.e.x., tibb elmləri doktoru, professor Rafiq Musa oğlu Məmmədhəsənov rəhbərlik edir.

Professor R.Məmmədhəsənov 1993-cü ildən Azərbaycan Tibb Universitetinin elmi işlər üzrə prorektoru vəzifəsində çalışır və Respublika Səhiyyə Nazirliyinin endokrinologiya üzrə baş mütəxəssisidir. Professor R.Məmmədhəsənov həm də Milli Məclisin deputatıdır. Son 30 il ərzində kafedrada elmi-tədqiqat və tədris sahəsində əvvəllər əsası qoyulmuş ənənələr yaradıcılıqla davam etdirilir.

2019-cu ilə qədər kafedrada aparılan tədqiqat işləri əsasında 11 doktorluq, 69 namizədlik dissertasiyası müdafiə edilmişdir. Burada tələbələrin elmi-tədqiqat işlərinə cəlb olunmasına da xüsusi əhəmiyyət verilir. Kafedrada aspirantlar və klinik ordinatorlarla da geniş iş aparılır.

Daxili xəstəliklər kafedrasında endokrinologiyanın müxtəlif sahələri öyrənilir və müasir dövrün tələblərinə uyğun elmi-tədqiqat işləri aparılır. Onun rəhbərliyi ilə 8 ildən çoxdur ki, ATU-nun Tədris Terapevtik Klinikasında Endokrinoloji Mərkəz yaradılmışdır.

Hazırda kafedrada 42 nəfər işçi çalışır və kafedranın professor-müəllim heyəti 29 nəfərdən (1 nəfəri əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, 19 nəfəri tibb üzrə fəlsəfə doktoru, dosent, 9 nəfəri tibb üzrə fəlsəfə doktoru, assistent, 6 nəfəri assistent) ibarətdir. Kafedrada, həmçinin, 5 nəfər baş laborant (1 nəfər t.ü.f.d.) fəaliyyət göstərir.

Kafedrada IV-V-VI kurs tələbələrinə daxili xəstəliklər, IV kurs tələbələrinə endokrinologiya, V kurs tələbələrinə isə peşə xəstəlikləri tədris olunur. Kafedrada elmi-tədqiqat və tədris sahəsində əvvəllər əsası qoyulmuş ənənə yaradıcılıqla davam edir. Hal-hazırda kafedranın klinik bazası 30 endokrinologiya çarpayı yeri təşkil edir. 2011-ci ildən etibarən kafedrada həkim rezidentlər fəaliyyət göstərir. Kafedranın əməkdaşlarının əksəriyyəti Avropa Endokrinoloji Assosiasiyasın üzvüdür.

# Professor Beynəlxalq mükafata layiq görülüb

**Dekabrın 19-da ATU-nun İctimai fənlər kafedrasında tədbir keçirilib.**

Tədbiri kafedranın professoru Fəxrəddin Məmmədov açaraq bildirib ki, kafedranın müdiri, professor Qoşqar Əliyev Türk Dünyası Araşdırmalar Beynəlxalq Elmlər Akademiyasına üzv seçilib və "Beynəlxalq Qızıl Ulduz" Medalı ilə təltif olunub.

Professor F.Məmmədov çıxışında professor Q.Əliyevin yaradıcılığına qısa nəzər salıb və bu münasibətlə onu təbrik edib. Sonra söz adıçəkilən akademiyanın Azərbaycan təmsilçisi professor Elçin İsgəndərzadəyə verilib. O, təmsil olunduğu akademiya ilə bağlı geniş məlumat verdikdən sonra qeyd edib ki, bu nüfuzlu mükafat türkdilli ölkələrdə yaşayan, müxtəlif sahələrə öz elmi, xidmətləri ilə töhfə verən dövlət, elm və mədəniyyət adamlarına verilir: "Qoşqar müəllim də Elmi Baş Məclisin üzvlərinin 11 dekabr 2019-cu il tarixli qərarı ilə akademiyaya üzv qəbul olunub və eyni zamanda Beynəlxalq Mükafat Komitəsinin qərarı ilə Türk dünyasının elm və təhsilinə göstərdiyi yüksək xidmətlərinə görə "Beynəlxalq Qızıl Ulduz" Medalına layiq görülüb".

E.İsgəndərzadə bu mükafatın, həmçinin, Azərbaycan və digər türkdilli ölkələrin tanınmış dövlət və elm adamlarına verildiyini də qeyd edib. Onların sırasında Ulu öndər Heydər Əliyevin, Türkiyə Cümhuriyyətinin sabiq prezidenti Süleyman Dəmrəlin, Qazaxıstanın sabiq prezidenti Nursultan Nazarbayevin və digə rlərinin adlarının da olduğunu söyləyib.



Professor Q.Əliyev də öz növbəsində bu mükafat və uğuru təkcə özünün uğuru kimi yox, həmçinin rəhbərlik etdiyi kollektivin uğuru kimi dəyərləndirib.

# ATU-nun Tədris Cərrahiyyə Kinikasında "Videotorakoskopiyanın yeri" mövzusunda seminar keçirilib

**◆ Dekabrın 21-də ATU-nun Tədris Cərrahiyyə Klinikasınında "Döş qəfəsi travmalarında müasir diaqnostika və müalicə üsulları (Videotorakoskopiyanın yeri)" mövzusunda seminar keçirilib.**

Seminarı klinikanın direktoru, professor Surxay Hadıyev açaraq əvvəlcə rəhbərlik adından bütün iştirakçıları salamlayıb. O, klinikada müalicə işi ilə yanaşı, ənənəvi olaraq həm tədris, həm də elmi işlərin aparıldığını söyləyib: "Professor-müəllim heyəti, klinikanın həkimləri dövri olaraq belə tədbirləri təşkil edirlər. Bu, davamlı tibbi təhsilin tərkib hissəsi kimi qəbul olunmalıdır. Əlbəttə, müasir həkimin, cərrahın təkcə müalicə işi ilə məşğul olduğunu təsəvvür etmək mümkün deyil. Belə konfransların, konqreslərin təşkili dünyadakı ən son tibbi yeniliklərlə tanış olmaq, maraqlı məruzələr dinləyərək faydalı diskussiyalar aparmaq imkanı yaradır".

S.Hadıyev torakal cərrah kimi ağır əməliyyatlar aparmasına baxmayaraq, vaxt tapıb elmi işlərə də diqqət ayıran Dr. Arif Ağayevin bu təşəbbüsünü yüksək qiymətləndirib. Döş qəfəsi cərrahiyəsinin Azərbaycanda digər sahələrlə müqayisədə nisbətən az öyrənildiyini deyən klinikanın rəhbəri, proqrama məhz bu sahəyə aid məruzələrin salınmasının əhəmiyyətini xüsusi vurğulayıb.



Bundan sonra t.e.d., dosent Məlahət Sultanovanın "Döş qəfəsinin travmatik zədələnmələrinin radiodiqnostikası" mövzusunda məruzəsi dinlənilib. Müasir dövrdə radiologiyanın tibbin bütün sahələri üzrə aparıcı rol oynadığını, mütəxəssislərin köməkçisi olduğunu vurğulayan məruzəçi qeyd edib ki, ən yüngül patologiyalardan başlamış ən ağır patologiyalara qədər dəqiq müayinələr radiologiyasız ötüşmür. Döş qəfəsinin travmatik zədələnmələrinin 20-25 faizinin ölümlə nəticələndiyini söyləyən M.Sultanova daha çox bu xəstəliyin diaqnostikası üzərində dayanıb. Toraks travmalar, diaqnostikanın əsas prinsipləri, radioloji taktika, komanda işinin təşkili barədə ətraflı məlumat verib. Həmçinin, döş qəfəsinin travmatik zədələnmələrinin təsnifatını, travmaların optimal dəyərləndirilməsini diqqətə çatdırıb.

Dr.Arif Ağayev isə "Döş qəfəsi travmalarında müasir diaqnostika və müalicə üsulları (Videotorakoskopiyanın yeri)" mövzusunda məruzə ilə çıxış edib. Bildirib ki, seminarın təşkilində əsas məqsədimiz döş qəfəsi travmalarında yardım səviyyəsinin hansı vəziyyətdə olduğunu diqqətə çatdırmaqdır. Hansı diaqnostika üsullarından istifadə edilməsi, hansı prosedurların icra olunması, daha çox hansı ağırlaşmalara rast gəlinməsi və onların profilaktikasının öncədən planlaşdırılması məsələlərinə toxunan Dr. A.Ağayev toraks travmasının tarixindən və etiologiyasından da söhbət açıb.

Eyni zamanda cərrahi prosedurlarla bağlı videogörüntüləri nümayiş etdirib.

Fizioterapiya və tibbi reabilitasiya kafedrasının II kurs rezidenti ( kurator assistent Nurlana Əliyeva) Zərqələm Əsgərovanın "Döş qəfəsi travmalarında reabilitasiya" mövzusunda məruzəsi də maraqla qarşılanıb. Həkim-rezident torakal zədələnmələr zamanı əmələ gələn patologiyaların aradan qaldırılması, ağ ciyərin yenidən bərpası və xəstənin həyatının bərpası üçün fizioterapiya və reabilitasiya aparılmasının vacibliyindən danışıb.

Seminarda slaydlarla müşayiət olunan hər üç məruzəyə dair müzakirələr aparılıb və seminar iştirakçılarının sualları məruzəçilər tərəfindən cavablandırılıb.

**ATU-nun mətbuat xidməti**

**İMADƏDDİN NƏSİMİ - 650**

# Dünya ədəbiyyatında özünəməxsus yeri olan dahi şair

◆ **Möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının sərəncamı ilə 2019-cu il "Nəsimi ili" elan olunub.**

Bununla əlaqədar Respublikamızın bütün şəhər və rayonlarında, ali təhsil ocaqları və məktəblərdə, radio və televiziya verilişlərində Nəsimi yaradıcılığına həsr olunmuş müxtəlif formada elmi-ədəbi, mədəni-kütləvi tədbirlər keçirilib.

Dünya ədəbiyyatı bir çox adlar tanıyır ki, onlar öz yaradıcılıqlarında nəinki poetik obrazlar yaratmış, hətta ən çətin dövrdə belə bu haqsızlığa qarşı mübarizə də aparmışlar. Belə tanınmışlardan biri də İmadəddin Nəsimi olub.

İmadəddin Nəsimi 1370-ci ildə Şirvanda-Şamaxı şəhərində anadan olub. Şamaxı o vaxt orta əsrlər Azərbaycanının mədəni mərkəzi olub. Burada poetik məktəblər, alimlər, musiqiçilər cəmiyyəti fəaliyyət göstərib. Onların ətrafında nəinki Şirvan, eləcə də Tiflis, Təbriz, Bağdad, Səmərqənd, Dehli ilə də sıx əlaqə saxlanılıb.

Nəsiminin gəncliyi belə bir mühitdə keçib. O, öz doğma Azərbaycan dilindən başqa ərəb və fars dillərini də gözəl bilirdi. Onun üç dildə - ərəb, fars və Azərbaycan dillərində yazdığı şeirləri buna sübutdur.

Nəsiminin poeziyası onun yüksək səviyyəli bir şair olduğunu və sələfləri Xaqani, Nizami, Xəyyam, Cami kimi ensiklopedik biliyə malik olduğunu göstərir. Onun astronomiya, riyaziyyat, biologiya, coğrafiya, fəlsəfə elmləri barədə dərin məlumatı var idi. O dövr fars dili Yaxın və Orta Şərq üçün yeganə ədəbi dil hesab olunurdu və şairlərin istedadı ərəb və fars dillərində necə yazıb-yaratdığı ilə ölçülürdü. Lakin Nəsimi bu dillərlə yanaşı öz əsərlərini doğma Azərbaycan dilində də yazdı. Nəsimi xalq dilini – folkloru gözəl bilirdi. Bu səbəbdən də atalar sözləri, zərbi məsəlləri, fəlsəfi qəzəlləri, rübailəri Azərbaycan bayatılarına çox bənzəyir. Onun ən məşhur yaradıcılıq məhsulu Azərbaycan dilindəki "Divan" olub.

Nəsiminin doğma xalqı qarşısında ən böyük xidmətlərindən biri odur ki, o ədəbiyyat tarixində ilk şah əsərini öz doğma dilində yazmaqla Azərbaycan ədəbi dilinin əsasını qoyub. Nəsimi poyeziyası insanı tərənnüm edən bir himn kimi səslənir.

Nəsimi çox məşəqqətli bir dövrdə - Azərbaycanın arası kəsilmədən hücümlara məruz qaldığı bir dövrdə yaşayıb-yaratmışdır. Teymurləngin hücümları, kənd və şəhərlərin darmadağın edilməsi və hürufizm siyasi fəlsəfi hərəkatı, müharibədə axıdılan günahsız qanlar və insanlara qarşı olan haqsızlıqlara dözməyən Nəsimi öz doğma yurdundan sərkərdan düşüb, əvvəl Türkiyədə, sonra İranda yaşayır. Ölüm isə onu Suriyada – Aleppo




şəhərində yaxalayıb.

Rəvayətə görə Nəsiminin hürufiçi tələbələrindən biri adamların sıx toplaşdığı bir yerdə şairin qəzəllərini oxuyarkən ruhanilər tərəfindən yaxalanır və ondan bu qəzəllərin müəllifinin kim olduğunu soruşanda o özü yazdığını söyləyir. Buna görə də ona dar ağacından asılmaq əmri verilir. Bundan xəbər tutan Nəsimi elan edir ki, qəzəllərin müəllifi o gənc yox, özüdür. Bununla da şair tələbəsini xilas edir, ona isə daha ağır cəza - təkçə dar ağacından asılmaq yox, dərisini soymaqla edam edilmək əmri verilir. Əlbəttə, bu barədə çoxlu dəlillər və əfsanələr var. Lakin sübüt olan fakt ərəb mənbələrinə istinadən götürülüb (yazıçı Anarın "Nəsimi" filminin ssenarisi də bu fakt əsasında yazılıb). Ərəb mənbəsi olan "Kunüz-uz-Zaxab"da Nəsiminin edam olunması haqda yazılıb ki, onu nəinki edam etmək, hətta dərisinin soyulması haqda əmr verilmişdir.

Əfsanəyə görə Nəsiminin son nəfəsinə qədər cəlladlar onun ağzından tövbə, peşmançılıq kəlməsini eşitmədilər. O, yalnız "Ənəlhəq"- "Ənəlhəq" deyirdi (Yəni mənəm Allah, Allah mənim içimdədir, mən həqiqətəm). Bu fakt da ərəb mənbələrindən götürülüb ki, cəlladlardan biri ona: "Sən necə Allahsan ki, qanını itirdikcə rəngin solur?"- deyir. Nəsimi cavabında: "Günəş də batanda solur" - demişdir.

Ölümündən sonra da qara qüvvələr onun şeirlərini, qəzəllərini, rübailərini oxuyanları izləmiş və onları da Nəsimi kimi məhv etmişlər.

Nəsimi çox çətin, mürəkkəb və ziddiyyətli yaradıcılıq yolu keçib, çox narahat, təhlükəli bir dövrdə yaşayıb. Aydındır ki, elə bu səbəbdən ümüdsizliyə qapılaraq dünyanın faniliyindən, insanların saxtalıqlarından, sədaqətsizliyindən də yazıb. Lakin o öz düşüncə tərzi, fəlsəfəsi və həyata inamı ilə yaradıcılığını davam etdirərək sözü elə bir zirvəyə yüksəldib ki, onun poetik ustalığı poeziyanın inkişafına böyük nüfuz gətirib və Nəsimi də Nizami, Xətai, Puşkin, Şekspir kimi dünya ədəbiyyatında özünəməxsus yeri olan tanınmış dahi bir şairə çevrilib.

**Tamilla XƏLİLOVA,**
*Xarici dillər kafedrasının professoru*

# Tələbələrin Təbabət muzeyinə ekskursiyası təşkil olunur

**ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə Tibb Universitetinin qarşıdan gələn yubileyi münasibətilə "ATU-90" layihəsi çərçivəsində hər həftə Azərbaycan Təbabəti muzeyinə müxtəlif fakültələrin tələbələrinin ekskursiyası təşkil olunur.**



Dekabrın 19-da belə ekskursiyalardan biri də II MPF fakültəsinin tələbələri üçün təşkil olunub. Tələbələr universitet avtobuslarının vasitəsilə qrup şəklində muzeydə iştirak ediblər.

Ekskursiya zamanı THİK fakültə sədrləri Cavid Mustafazadə və Rəşad Məmmədli tələbələri



muzeydə qorunub saxlanan eksponatlar haqqında məlumatlandırıb, səhiyyəmizin cümhuriyyət dövründən bu günə kimi gəlib çıxan inkişafını, tibb universitetinin 90 illik tarixini əks etdirən eksponatlarla stendlər tanış ediblər.

Tələbələr muzeyi böyük maraqla qarşılamış və müxtəlif eksponatlar barədə muzey bələdçilərindən ətraflı məlumat alıblar.

Sonda tələbələr muzey və gəzinti haqqında öz fikirlərini , muzeyin xatirə kitabına qeyd ediblər.

Məlumat üçün qeyd edək ki, layihənin davamı olaraq hər həftə müxtəlif fakültə tələbələri üçün gəzintilər mütəmadi təşkil olunacaqdır.

# Ödənişsiz oftalmoloji əməliyyatlar aparılıb

**ATU-nun Tədris Cərrahiyyə Klinikasında 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə ödənişsiz oftalmoloji əməliyyatlar yerinə yetirilib. Əməliyyatları klinikanın oftalmologiya şöbəsinin müdiri, assistent Qurban İsmayılov aparıb.**



Qarabağ müharibəsi veteranları, əlilləri və şəhid ailələrinin üzvləri, valideyn himayəsindən məhrum olmuş uşaqlar aksiyadan yararlanıblar.

5 tələbənin və 1 şəhid anasının üzərində cərrahi əməliyyat aparılıb. Qeyd edək ki, bu təşəbbüs artıq üçüncü dəfədir ki, həyata keçirilir.

# "Teatr tələbələr üçün" dərnəyi ikinci tamaşanı təqdim edib

◆ **ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin nəzdində yaradılmış "Teatr tələbələr üçün" dərnəyi ikinci tamaşanı təqdim edib. Bu dəfə tələbələr Sabit Rəhmanın "Nişanlı qız" tamaşasını oynayıblar.**



Dekabrın 20-də keçirilən tamaşa tələbələrin marağını cəlb edib. Qeyd edib ki, komediya janrında olan bu əsər cəmiyyətimizdə və məişətdəki bəzi problemləri yumoristik formada əks etdirir. Tamaşanın bədii rəhbəri və ssenari müəllifi Dilbər Rəhim, rejissoru isə Teatr Dərnəyinin sədri Nihad Novruzovdur.

Rolları aşağıdakı tələbələr ifa ediblər: Camal-Elbəy Cabbarlı, Bənövşə- Sitarə Həsənova, Yusif- Əsəd Şabanov, Qəmər- Rəhimə Nəzərova, Zərifə-Dilbər Rəhim, Mindilli- Nihad Novruzov, Ceyran xala- Aygün Abbasova, Mirzə Salman- Kamran Əliyev Qasım- Əyyub Eminli, Binanın gələcək sakini- İsmayıl Məmmədli.

Texniki heyət: Texniki heyət rəhbəri - Aysel İsmayıllı, Səs rejissoru- Ramazan Kərimli, İşıq rejissoru- Tağı Bayrampur, Yardımçı heyət: Rza Abbaszadə, İsmayıl Məmmədli.

# Qidalanmada gigiyenik risklər barədə növbəti seminar keçirilib

**Azərbaycan Tibb Universitetinin İctimai səhiyyə fakültəsinin tərkibində fəaliyyət göstərən Capasity Building klubu tərəfindən tələbələr üçün seminar keçirilib.**

Seminarda İctimai səhiyyə fakültəsinin dünya miqyasında qəbul edilən, lazımlı bir fakültə olduğu, bu fakültəni bitirənlərin dünyanın bir sıra qabaqcıl ölkələrinin nüfuzlu klinikalarında, elmi-tədqiqat mərkəzlərində çalışdıqları bildirilib. Ölkəmizdə də uğur qazananların az olmadığı, onlardan birinin də "Silk Way Airlens" MMC-nin "Sky Catering" Filialının Gigiyena şöbəsinin müdiri Sevinc Nəsirova olduğu tədbir iştirakçılarının nəzərinə çatdırılıb.



Qeyd edilib ki, mövcud patologiyaların 80-90 faizi qida amili ilə bağlıdır. Bu səbəbdən gələcək nəslin sağlam yetişməsi, ölüm göstəricilərinin azalması üçün sağlam qidalanma prioritet məsələlərdəndir. Təşkil olunan seminar da elə bu aktual məsələyə həsr olunub.

Sonra S.Nəsirova "Qidalanmada gigiyenik risklər" mövzusunda məruzə ilə çıxış edib. O, seminar iştirakçılarına qida risklərinin vacib aspektləri ilə bağlı geniş məlumat verib. Həmçinin, təhlükəli qidaların insan orqanizmi üçün hansı fəsadlar törətməsindən, bundan necə qorunmağın yollarından və digər məsələlərdən bəhs edib.

Mövzu iştirakçıların böyük marağına səbəb olub, onları maraqlandıran suallar məruzəçi tərəfindən cavablandırılıb.

# Tələbələrimiz "Mehmanxana sahibəsi" tamaşasını izləyiblər

**ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə komitənin aktiv tələbələri "Mehmanxana sahibəsi" tamaşasını izləyiblər.**



Tələbələri motivasiya etmək məqsədi daşıyan bu tamaşaya komitə tərəfindən 25-ə yaxın tələbə aparılıb.

Qeyd edək ki, ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsi aktiv tələbələrin daim incəsənət verilişlərində, yarışlarda iştirakını təmin edir.

**ATU-nun mətbuat xidməti**

# Görkəmli alim, sevimli müəllim

**Qarşıdan gələn 2020-ci ildə ATU-nun «Biofiziki və bioüzvi kimya» kafedrasının müdiri, akademik Dilqəm Bəbir oğlu Tağıyevin 70 yaşı tamam olur.**



Dilqəm Bəbir oğlu Tağıyev 6 yanvar 1950-ci ildə həkim ailəsində anadan olmuşdur. 1966-cı ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) kimya fakultəsinin əyani şöbəsinə qəbul olunmuşdur. Hələ tələbəlik illərindən elmi tədqiqatlara böyük maraq göstərmiş və 1969-cu ildə ilk elmi işini çap etdirmişdir. Tartu, Minsk, Tbilisi və Novosibirsk şəhərlərində keçirilən tələbə və aspirantların konfranslarında elmi məruzələrlə çıxış etmiş, birinci və üçüncü dərəcəli diplomlara, fəxri fərmanlara layiq görülmüşdür. Dərs əlaçısı olmaqla bərabər, ictimai işlərdə də fəal iştirak etmiş, 1968-1970-ci illərdə Universitet Tələbə Elmi Cəmiyyətinin sədri, Universitet komsomol komitəsinin büro üzvü və Bakı şəhəri komsomol komitəsinin üzvü seçilmiş, Azərbaycan komsomolunun XXVII qurultayının nümayəndəsi olmuşdur.

Dilqəm Tağıyev 1971-ci ildə Moskvada SSRİ EA Üzvi Kimya İnstitutunun aspiranturasına daxil olmuş və SSRİ EA-nın həqiqi üzvü, görkəmli kimyaçı akademik H.Minaçovun rəhbərliyi altında seolit katalizi sahəsində elmi axtarışlar aparmış və 1975-ci ildə namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir. Onun seolit katalizi sahəsində apardığı prioritet xarakterli tədqiqatlar nüfuzlu alimlər tərəfindən yüksək qiymətləndirilmişdir.

1974-1984-cü illərdə Azərbaycan EA Qeyri-üzvi və Fiziki Kimya İnstitutunda (indiki Kataliz və Qeyri-üzvi Kimya İnstitutu) mühəndis, kiçik və böyük elmi işçi kimi fəaliyyət göstərmişdir. Seolit və silikat katalizatorları üzərində müxtəlif sinif karbohidrogenlərin katalitik pirolizi, oksidləşməsi, oksidləşdirici dehidrogenləşdirilməsi və hidrogenləşməsi sahəsində tədqiqatlar aparmışdır. Bu tədqiqatların nəticələrinə görə 1983-cü ildə kimya və kimya texnologiyası sahəsində SSRİ-nin nüfuzlu mükafatlarından olan Ümumittifaq Lenin Komsomolu Mükafatına layiq görülmüşdür.

Dilqəm Tağıyev 1984-cü ildə Moskvada, SSRİ EA Üzvi Kimya İnstitutunun Elmi Şurasında doktorluq dissertasiyasını müdafiə etmişdir. O, 1985-ci ildə Azərbaycan EA Qeyri-üzvi və Fiziki Kimya İnstitutunda "Kompleks birləşmələr" qrupunun rəhbəri, laboratoriya müdiri, 1986-1991-ci illərdə elmi işlər üzrə direktor müavini işləmiş, 1989–1991-ci illərdə "Seolit" Sahələrarası Elmi Texniki Kompleksin baş direktoru təyin edilmiş, 1990-cı ildə professor elmi adını almışdır.

Dilqəm Tağıyev 1991-ci ildə Azərbaycan Tibb Universitetinin Ümumi kimya kafedrasının professoru seçilmiş, 1993-1995-ci illərdə Əczaçılıq fakültəsinin dekanı olmuş, 1995-ci ildə isə Biofiziki və bioüzvi kimya kafedrasının müdiri seçilmişdir. Pedaqoji fəaliyyəti elmi axtarışlarla daim əlaqələndirən Dilqəm Tağıyev 1999-cu ildən Azərbaycan MEA Neft Kimya Prosesləri İnstitutunun rəhbərliyinin dəvəti ilə "Heterogen kataliz" laboratoriyasına rəhbərlik etmişdir.

Onun elmi fəaliyyəti əsasən müxtəlif sinif karbohidrogenlərin və onların törəmələrinin hidrogenləşmə, oksidləşmə, izomerləşmə, alkilləşmə, oksidehidrogenləşmə, oliqomerləşmə və digər reaksiyaları üçün heterogen və homogen katalizatorların işlənib hazırlanmasına və təsir mexanizminin öyrənilməsinə, bioloji fəal metal-komplekslərin sintezinə və tədqiqinə, bəzi fiziki-kimyəvi proseslərin öyrənilməsinə və modelləşdirilməsinə həsr olunmuşdur.

Bir çox xarici dillərdə çap olunan və əsasən əcnəbi oxucular üçün nəzərdə tutulan "Наука в СССР" jurnalında (1985, №5) Dilqəm Tağıyevin elmi axtarışlarına ayrıca məqalə həsr olunmuşdur. SSRİ EA Rəyasət Heyətinin Yubiley iclasında (oktyabr, 1987) kataliz sahəsində mühüm nailiyyətlərdən biri kimi seolitlər üzərində oksidehidrogenləşmə reaksiyalarının tədqiqi sahəsində alınan nəticələr də qeyd olunmuşdur (Вестник АН СССР, 1987, №12). Bolqarıstanda keçirilən gənc ixtiraçıların dünya sərgisində D.Tağıyevin təqdim etdiyi katalizator diploma təltif edilmişdir (1985).

Dilqəm Tağıyev 2007-ci ildə Azərbaycan MEA-nın müxbir üzvü, 2010-cu ildə Respublika Elmi Tədqiqatlarının Təşkili və Əlaqələndirmə Şurasının "Kataliz" elmi istiqaməti üzrə Problem Şurasının sədri, 2013-cü ildə Azərbaycan MEA-nin Ümumi yığıncaginin qərarına əsasən Kimya Elmləri Bölməsinin akademik-katıbı və AMEA Rəyasət Heyətinin üzvü seçilmişdir. 2014-cü ildə Kimya Elmləri Bölməsinin ümumi iclasında AMEA-nın həqiqi üzvü və Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun direktoru, Respublika Elmi Tədqiqatlarının Əlaqələndirmə Şurasının üzvü, 2017-ci ildə isə AMEA-nın ümumi yığıncağında AMEA-nın vitse-prezidenti seçilmişdir.

O, 750-dən çox elmi əsərin (onlardan 470-i xarici ölkələrdə – ABŞ, Kanada, Meksika, İspaniya, Fransa, Belçika, Hollandiya, İngiltərə, Şotlandiya, İsveç, Finlyandiya, Almaniya, Avstriya, İtaliya, Çin, Çexiya, Macarıstan, Polşa, Boiqarıstan, Yaponiya, Cənubi Koreya, və s. çap edilmişdir), o cümlədən, 60 ixtiranın (patent və müəlliflik şəhadətnaməsinin), 21 monoqrafiya, kitab və dərsliyin, 16 tədris-metodik vəsaitin müəllifi, 2 kitabın baş elmi redaktoru, 6 kitab və toplunun redaktorudur. Onun 230-dan çox elmi məqaləsi impakt faktorlu elmi jurnallarda və toplularda çap olunmuşdur (o cümlədən, 125-i Veb of Science bazasına daxil olan).

Dilqəm Tağıyev bir çox xarici ölkələrdə keçirilən nüfuzlu elmi yığıncaqlarda Azərbaycan elminin təmsilçisi olmuşdur. 2017-ci ildə UNESCO-nun Parisdə keçirilən 39-cu Baş Konfransında Azərbaycanın dəqiq, ictimai və humanitar elmlər üzrə komissiyasının nümayəndəsi kimi Azərbaycan ərazisində geoparkların təşkili məsələlərinin müzakirəsində iştirak etmişdir.

Fransanın Lion Kataliz və Ekoloji Tədqiqatlar İnstitutunun və Norveçin SİNTEF Fondunun təklifi və dəvəti ilə Dilqəm Tağıyev beynəlxalq qrupun tərkibində 2019-2022-ci illər üçün Avropa Birliyinin Horizon 2020 Beynəlxalq Qrant müsabiqəsinin qalibi olmuşdur.

Dilqəm Tağıyev SSRİ EA Kataliz üzrə Şurasının üzvü (1989), Nyu-York Elmlər Akademiyasının (1994), Beynəlxalq Seolit Assosiasiyasının (2001), Amerika Kimya Cəmiyyətinin (2003), Rusiya Təbiətşünaslıq Akademiyasının (2013) və Beynəlxalq Perspektiv Materiallar Assosiasiyasının üzvü (2018) seçilmişdir.

Hal-hazırda Dilqəm Tağıyev Azərbaycan MEA-nın vitse-prezidenti, akademik M.Nağıyev adına Kataliz və Qeyri-üzvu Kimya İnstitutunun direktoru, Azərbaycan Kimya jurnalının baş redaktoru, "Azərbaycan MEA-nın Məruzələri", "Azərbaycan MEA-nın Xəbərləri" jurnallarının, "ELM" qazetinin redaksiya şurasının, Respublika Elmi Tədqiqatların Əlaqələndirmə Şurasının, Azərbaycan Respublikası Narkomanlıga və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının, AMEA Yüksək Texnologiyalar Parkının Müşahidə Şurasının üzvü, AMEA Rəyasət Heyətinin nəzdində yaradılmış "Yalançı elmə qarşı mübarizə Komissiyası"nın sədridir.

Azərbaycan Tibb Universitetinin «Biofiziki və bioüzvi kimya» kafedrasının kollektivi kafedra müdiri, akademik Dilqəm Bəbir oğlu Tağıyevi anadan olmasının 70 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, ulu Tanrıdan ona möhkəm cansağlığı, xoşbəxtlik diləyir, gələcək işlərində yeni nailiyyətlər arzulayır!

*«Biofiziki və bioüzvi kimya» kafedrasının əməkdaşları*

# Könüllülərə sertifikatlar təqdim olunub

**ATU-nun könüllülük fəaliyyətində aktiv olan tələbələr sertifikatla təltif olunub. Sertifikatların təqdimat mərasimində ATU-nun I müalicə-profilaktika fakültəsinin dekanı, dosent Elşad Novruzov çıxış edərək könüllülük proqramının üstünlüklərindən danışıb.**



Qeyd edib ki, tələbələrimiz ikinci dəfədir ki, öz təşəbbüsləri ilə könüllülük proqramına qoşulublar: Ölkədə gənclər arasında könüllülük proqramı vüsət almaqdadır. İlk olaraq bu işə başlayan "ASAN xidmət" oldu. Sonradan digər qurumlar, o cümlədən Səhiyyə Nazirliyi də könüllülük siyasətini dəstəkləyərək gənclər üçün belə imkan yaratmış oldular".

E.Novruzov bildirib ki, bu dəfə universitetimizin tələbələrindən könüllü olmaq istəyən 50-yə yaxın müraciət var. Onlardan 10 nəfəri könüllü olub. Tələbələrin öz istəkləri ilə ATU-nun müxtəlif şöbə və fakültələrində könüllülük fəaliyyətini həyata keçiriblər. 2 ay ərzində tələbələr universitetin ictimai işlərində iştirak edib, kargüzarlıq və digər sənəd işlərində ATU-nun rəhbərliyinə yaxından köməklik göstəriblər.

Səhiyyə Nazirliyinin könüllülər proqramı üzrə kuratoru Vüsalə Səfərova bir ildir start verilən proqramın fəaliyyətinin gündən-günə güclənməsinin sevindirici hal olduğunu bildirib.Qeyd edib ki, bu proqrama müraciət edənlər arasında ATU-nun tələbələrinin sayının artması müsbət haldır. V.Səfərova könüllülük fəaliyyətinin gənclərin karyerasında önəm daşıdığını, müsbət təsir göstərəcəyini deyib.

Sonra könüllü kimi fəaliyyət göstərən 10 tələbə Səhiyyə Nazirliyinin sertifikatı ilə təltif olunub.

# İdmançı tələbələrimiz yunan-roma güləşi üzrə açıq turnirdə fərqləniblər

◆ **Azərbaycan Memarlıq və İnşaat Universitetində 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş yunan-roma güləşi üzrə ənənəvi açıq turnir keçirilib.**

Universitetin idman klubunun əməkdaşı, Əməkdar məşqçi, fəxri bədən tərbiyəsi və idman işçisi, dosent Mehdi Nəzərov ölkə prezidenti İlham Əliyev cənablarının idmana və idmançılara göstərdiyi böyük qayğıdan söhbət açıb. O, universitetin rektoru, professor G.Məmmədovanın adından güləşçiləri salamlayaraq yarışı açıq elan edib.



Universitetlərlə yanaşı, idman cəmiyyətlərindən 139-dan çox idmançının qatıldığı tədbirə ATU-nun "Təbib" idman klubun əməkdaşı, Əməkdar məşqçi, beynəlxalq dərəcəli hakim, professor Zakir Məmmədov və onunla birlikdə tələbə güləşçilər də dəvət olunublar. Bu mötəbər yarışda ATU-nu təmsil edən 9 tələbədən 7-si yüksək yerlərə layıq görülərək qızıl, gümüş və bürünc medallar, diplomlarla təltif edilib. Uğur qazanan tələbələrdən Aydın Paydar, Cəlilağa Bəylərov, İbrahim İbrahimov, Xəyal Məmmədov, Murtuza Parvəriş və başqalarının adlarını iftixarla çəkə bilərik. Onu da xatırladaq ki, Əməkdar məşqçi, professor Telman Əsədov yüksək səviyyədə güləş texnikası göstərdiklərinə görə ATU-nun 418[ASB] qrup tələbəsi Aydın Paydar və 219 R2A qrup tələbəsi İbrahim İbrahimova əlavə diplomlar təqdim edib. Professor Z.Məmmədov isə güləş yarışını yüksək səviyyədə apardığına görə xüsusi diplomla mükafatlandırılıb.

SSRİ-i idman ustası, professor Z.Məmmədov bu cür mötəbər idman yarışlarının Azərbaycan Tibb Universitetində keçirilməsi üçün də hər cür şəraitin olduğunu və bunu arzuladıqlarını deyib. Bildirib ki, tələbələrimiz bu il güləş üzrə keçirilən Azərbaycan və Bakı çempionatlarından başqa ali məktəblər arasındakı yarışlarda böyük həvəslə çıxış ediblər. Hesab edirəm ki, idmançı tələbələrimiz 2020-ci il üçün də təşkil olunmuş bütün güləş yarışlarına yüksək səviyyədə hazırlaşacaqlar.

**M.NƏZƏROV**
*dosent*

# Moskvalı qonaq tələbələr qarşısında məruzə edib

**Dekabrın 17-də ATU-nun İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasında Rusiya Federasiyasının Səhiyyə Nazirliyinin İctimai Sağlamlıq Mərkəzinin "Səhiyyə Könüllüləri" layihəsinin xüsusi şöbəsinin rəhbəri Mariya Yakunçikova tələbələr qarşısında məruzə ilə çıxış edib.**



Xanım M.Yakunçikova çıxışında Rusiya Federasiyasının ərazisində və eləcə də bir sıra xarici ölkələrdə "Səhiyyə Könüllüləri" çərçivəsində həyata keçirdikləri layihələr barədə ətraflı məlumat verib. O, baş verən qəzalar zamanı zərərçəkmişlərə ilk təcili yardımın göstərilməsi, qarşıya çıxan müxtəlif formalı fiziki və psixioloji gərginliklərin aradan qaldırılmasında könüllülərin xüsusi fəallıq göstərdiyini deyib. Çıxışında inkişaf etmiş ölkələrdə "Səhiyyə Könüllüləri" üzrə yaradılan mərkəzlər tərəfindən hazırlanmış yol xəritəsi barədə danışaqn M.Yakunçikova bu layihəyə uyğun aparılan bir çox xilasetmə əməliyyatlarında qazanılan uğurlardan da söhbət açıb.

Bildirib ki, "Səhiyyə Könüllüləri" proqramı əsasında xarici ölkələrin müxtəlif ali məktəbləri ilə skayp vasitəsilə əlaqələr yaradılır, tələbələr arasında sistemli qayada iş aparılır, könüllülük prinsipinə cəlb edilənlərin vasitəsilə elmi, mədəni və kütləvi tədbirlər həyata keçirilir. Layihə rəhbərinin sözlərinə görə, bu layihə gənclərln gələcək dünyagörüşünün formalaşmasında və peşə



fəaliyyətlərində böyük rol oynayacaq.

Diskussiya şəraitində keçən görüşdə Rusiya Federasiyası Səhiyyə Nazirliyinin İctimai Sağlamlıq Mərkəzinin Beynəlxalq layihələr üzrə kordinatoru Elizaveta Xunduma və eləcə də adı çəkilən kafedranın professor-müəllim heyəti iştirak edib.

İmadəddin Nəsimi - 650

## Şərq poeziyasına nadir incilər bəxş edən şair böyük sevgi ilə anılıb

ATU-nun İctimai fənlər kafedrasında görkəmli Azərbaycan şairi İmadəddin Nəsiminin yaradıcılığına həsr olunmuş tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan adıçəkilən kafedranın müdiri, professor Qoşqar Əliyev şairin həyatı və yaradıcılığı ilə bağlı məlumat verib. Onun təkcə görə edam edildiyini qeyd edib. Dini elmləri kamil şəkildə mənimsəyən Nəsimini sovet dövründə xalqa düzgün təqdim olunmadığını bildirən professor F.Məmmədov şairin Hələbdə 1000 nəfərin namaza durduğu məsciddə müfti seçildiyini də qeyd edib.

Tədbirdə çıxış edən həkim-




Azərbaycan poeziyasına deyil, eyni zamanda Şərq poeziyasına verdiyi nadir incilərdən, bənzərsiz töhfələrdən danışıb. Şairin qəzəllərindən nümunələr söyləməklə, onun fəlsəfi dünyagörüşünün mahiyyətinin izahını verib.

Sonra kafedranın professoru, tarixçi alim Fəxrəddin Məmmədov İmadəddin Nəsiminin həyat və yaradıcılığının kölgədə qalan və geniş ictimaiyyətə bəlli olmayan məqamlarından söhbət açıb. Şairin edamının isə yazdığı şeirlərlə heç bir əlaqəsi olmadığını, siyasi görüşlərinə şair Fəxrəddin Ziya Nəsiminin əsrarəngiz ədəbi irsinin özünəməxsus xüsusiyyətindən danışıb, onun fəlsəfi dünyasının dərinliyinə varıb. O, daha sonra Nəsimiyə həsr etdiyi şeirini söyləyib.

Kafedranın əməkdaşı Firuzə Musayevanın qiraətində "Ağrımaz" qəzəli alqışla qarşılanıb.

Tədbirdə tanınmış müğənni Sami Yusifin ifasında səsləndirilən "Sığmazam" qəzəlinin video-roliki nümayiş etdirilib və tədbir iştirakçılarında xoş ovqat yaradıb.

## Tələbələr aralıq qiymətləndirmə haqqında təklif verdilər

◆ **Azərbaycan Tibb Universitetinin II müalicə-profilaktika fakültəsinin I və II kurs qrup nümayəndələrinin fakültə rəhbərliyi ilə görüşü baş tutub. Qabaqcıl tələbələrlə görüşdə fakültə dekanı, dosent İsrail Məhərrəmbəyli bildirib ki, toplantının məqsədi aralıq qiymətləndirmənin təhlili, imtahan sessiyasına hazırlıq səviyyəsinin dəyərləndirilməsidir.**



Universitetin tədris-hissə müdiri, dosent Samir Cavadov isə yaxın illərdə ATU ilə digər ölkələrin qabaqcıl universitetləri arasında birbaşa tələbə mübadiləsi proqramının tətbiq olunacağını, bununla bağlı yeniliklərin gözlənildiyini qeyd edib.

Daha sonra tələbələrin aralıq qiymətləndirmə ilə bağlı fikir və təklifləri dinlənilib. Tələbələr bildiriblər ki, aralıq qiymətləndirmənin 3 həftə ərzində dərs saatlarına uyğun vaxtlarda keçirilməsi dərslərin gedişini pozur. II müalicə-profilaktika fakültəsinin dekan müavini, dosent Sevinc Məhərrəmovanın da iştirak etdiyi görüşdə tələbələr sualların çətinlik kateqoriyaları üzrə qruplaşdırılmasına, semestr ərzində kollokviumların ümumi sayının 3-dən 2-yə endirilməsini təklif ediblər.

**Orta yaşlı şəxslərin gündəlik qida payında meyvə və giləmeyvələrin miqdarı təxminən 200 q normalaşdırılır. Təzə meyvə və giləmeyvələrin tərkibində çox az miqdarda zülal və yağlar olur. Qidalanmada onların əhəmiyyəti əsasən tərkibinin karbohidratlar, vitaminlər və mineral maddələrlə zənginliyi ilə əlaqədardır.**

# Meyvə və giləmeyvələrin qidalanmada əhəmiyyəti

Meyvə və giləmeyvələrdə karbohidratlardan sadə şəkərlər üstünlük təşkil edir. Həmçinin, onlarda az miqdarda saxaroza və nişasta aşkar edilir. Bunlarla yanaşı meyvə və giləmeyvələrin tərkibində xeyli miqdarda mənimsənilməyən karbohidratlar – sellüloz, pektin və hemisellüloz da vardır.



Meyvə və giləmeyvələrin tərkibindəki pektin yetişmə dövrünün əvvəlində əsasən sərt struktura malik protopektin şəklində olur. Ona görə də hələ yetişməmiş meyvələr çox bərk olur. Yetişmə dövründə isə protopektin pektinə çevrilir, nəticədə meyvə və giləmeyvə yumşalır. Pektin maddəsinin detoksikasiyaedici və bakterisid təsir xüsusiyyətinə malik olması sübut edilmişdir.Sellülozla birlikdə onlar ballast maddənin əsasını təşkil edirlər ki, bunlar da bağırsaqların motor və sekretor (hərəki və şirə ifrazı) fəaliyyətini tənzimləyir.

Meyvə giləmeyvələrdə üzvi turşular xüsusən, alma və limon turşuları orqanizmdə lipid mübadiləsinə müsbət təsir göstərir, həzm traktının fəaliyyətini aktivləşdirir.

Meyvə və giləmeyvələr orqanizmin vitaminlərlə təminatında ( xüsusən, "C" vitaminilə) mühüm rol oynayır. Respublikamızda yetişdirilən meyvələrin əksəriyyətində "C" vitamininin miqdarı 5-15 mq% həddində dəyişir. Sitrus meyvələrində (portağal, limon, naringi və s.) onun miqdarı 40-60 mq%-ə çatır. Giləmeyvələrdə "C" vitamininin miqdarı daha yüksək olub, təzə itburnuda 2000 mq%, qara qarağatda və çaytikanıda 200 mq%, çiyələkdə 60 mq%, moruqda 25 mq%-ə çatır. Bəzi meyvə və giləmeyvələr β-karotinlə zəngindir. Belə ki, onun miqdarı çaytikanıda 10 mq%, itburnuda 2,6 mq%, ərikdə 1,6 mq%, xurmada 1,2 mq%, heyvada 0,4 mq%, qırmızı qarağatda və moruqda isə 0,2 mq% -dır.

Giləmeyvələrin çoxu bioflavinoidlərlə zəngin mənbə hesab olunur ki, onlar da "C" vitamininin təsir effektini gücləndirir. Bunlara qaragiləni, qara qarağatı, moruğu, çiyələyi misal göstərmək olar. Meyvə və giləmeyvələrin bir çoxunda olan rəngverici maddələr (antosian) əhəmiyyətli dərəcədə bakterisid təsir effektinə malikdir. Ona görə də hələ qədim zamanlardan qaragilə, qırmızı üzüm və qara qarağat bir sıra mədəbağırsaq xəstəliklərinin müalicəsində istifadə edilməkdədir. Respublikamızda təzə meyvə və giləmeyvələrin əsas hissəsi yay-payız mövsümündə yetişir və istifadə edilir. Elə bu mövsümlərdə də insan orqanizmi həmin məhsullarla kifayət qədər vitaminlər və xüsusən "C" vitamini qəbul edir.

Qeyd etmək lazımdır ki, meyvə və giləmeyvələr həm də mineral maddələrin və mikroelementlərin mühüm mənbəyidir.

Meyvə və giləmeyvələr çiy halda yeyilməklə yanaşı, böyük hissəsi konservləşdirilərək istifadə olunur. Onlardan şirələr, kompotlar, mürəbbə və cemlər hazırlanır, bəzi meyvələr qurudularaq saxlanılır. Konservləşdirmə prosesində və sonrakı saxlanma dövründə onların tərkibində olan karbohidratlar və mineral maddələrin miqdarı cüzi dəyişildiyi halda, vitaminlərin, xüsusən də "C" vitamininin miqdarı əhəmiyyətli dərəcədə azalır. "C" vitamini meyvə və giləmeyvələrin şirələrinin hazırlanmasında 20-40%, kompot hazırlanmasında isə 30-40%-ə qədər itir. Mürəbbə və cem hazırlanması nisbətən uzun müddət termiki işlənmə tələb etdiyindən "C" vitamininin itkisi hətta 50-80%-ə qədər çatır.

Quru kompot qarışığı hazırlamaq üçün ənənəvi üsulla meyvə və giləmeyvələrin qurudulması daha çox vitamin itkisinə səbəb olur. Bu zaman məhsulda "C" vitamininin miqdarı 90-95 %-ə dək azalır. Qurudulmuş meyvə və giləmeyvələrdə "C" vitamini faktiki olaraq qalmır, yalnız istiliyə davamlı " B" qrupu vitaminlərinə az miqdarda rast gəlinir. Qurudulmuş almada "C" vitamini 2 mq%-ə qədər, "B1" və "B2" vitaminləri 0,04 mq%, "PP" vitamini isə təxminən 0,9 mq% miqdarında qalır. Kişmişdə ümumiyyətlə "C" vitamini qalmır, yalnız "B1", "B2", "PP" vitaminlərinə rast gəlinir. Kişmiş və qurudulmuş almaya nisbətən qaysıda vitaminlərin miqdarı bir qədər çox olur. Öyrənilmişdir ki, təzə halda saxlanan almada dörd ay ərzində "C" vitamini təxminən 4-5 dəfə azalır,yaz mövsümünə saxlanmış almada isə onun miqdarı 1 mq%-dən də az olur. Deməli yerli meyvə və giləmeyvələr yalnız mövsümü olaraq qida payımızda vitamin mənbəyi rolunu oynaya bilər. Qış və yaz mövsümlərində vitamin mənbəyi kimi qida payına yerli meyvələrlə yanaşı həm kifayət qədər təzə tərəvəz məhsulları, həm də sitrus meyvələri və ekzotik meyvələr daxil edilməlidir.

**Ş.Səmədov,**
*Ümumi gigiyena və ekologiya kafedrasının dosenti*
**V.Əliyev,**
*kafedranın baş müəllimi*

## Allah rəhmət eləsin!

Ümumi və toksikoloji kimya kafedrasının əməkdaşları kafedranın dosenti Faiq Həsənova bacısı **Balaxanım və** qardaşı oğlu **Xanların** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ETM-in kollektivi iş yoldaşları Zeynəb Vəliyevaya qardaşı **Eldar İsmayılovun** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

ETM-in kollektivi iş yoldaşları Gülşən Hacıyevaya əzizi **Qiyaməddin Hacıyevin** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Tibbi və bioloji fizika kafedrasının əməkdaşları kafedranın laborantı Kəmalə Kərimovaya babası **İsa Hüseynovun** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

## Etibarsız sayılır

II müalicə-profilaktika fakültəsinin II kurs, $218^{a-5a}$ qrup tələbəsi Yaqublu Yaqub Mustafa oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin V kurs, $20^{a}$ qrup tələbəsi Abdullayeva Ülkər Vidadi qızının adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin V kurs, $20^{a}$ qrup tələbəsi Sadıqova Aysel Yaşar qızının adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyistri Xidməti tərəfindən Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsi, H.Quliyev küçəsi, ev 24, mənzil 21-də yaşayan Qurbanov Sədi Məfərrəm oğluna verilmiş ona məxsus mənzilin çıxarışı (kupça) itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin V kurs, $213^{b}$ qrup tələbəsi İsmayılova Səma İsmayıl qızının adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin IV kurs, $169^{a}$ qrup tələbəsi Nəzərli İsmayıl Qüdrət oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

İctimai səhiyyə fakültəsinin IV kurs, $641^{a}$ qrup tələbəsi İsmayılova Aidə Vüqar qızının adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

İctimai səhiyyə fakültəsinin III kurs, $617^{r-1}$ qrup tələbəsi Kərimli Günel Vüqar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin III kurs, $117^{a-21}$ qrup tələbəsi İbrahimova Aysel Vaqif qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin V kurs, $21^{c}$ qrup tələbəsi Tağıyeva Aytəkin Rafiq qızının adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin V kurs, $21^{c}$ qrup tələbəsi Kuliyeva Aida Rövşən qızının adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin V kurs, $21^{c}$ qrup tələbəsi Qəhrəmanov Mixail Misiroviçin adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin III kurs, $717^{a-16}$ qrup tələbəsi Sahand Gholipourun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Hərbi tibb fakültəsinin V kurs, $1116^{a}$ qrup tələbəsi Pənahov Adəm Rasim oğlunun adına verilmiş tələbə bileti və şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin I kurs, $419^{a-1a}$ qrup tələbəsi Feyzullayev Tərlan Qadir oğlunun adına verilmiş tələbə bileti və şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Rüstəmova Xuraman Kamil qızına 1989-cu ildə Azərbaycan Tibb Universiteti tərəfindən terapevt ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin VI kurs, $35^{a}$ qrup tələbəsi Rzabəyli Şahnaz Müşfiq qızının adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - $98^{c}$
2-ci mərtəbə,
Tel.: 595-24-97
tibbqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 2200